İPƏK YOLU, No.4, 2022, səh.12-16

# İDXALƏVƏZLƏMƏ ÜZRƏ REGİONAL DÖVLƏT SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ KONTEKSTİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYATINDA İNSTİTUSİONAL DƏYİŞİKLİKLƏRİN PRİORİTETLƏRİ

**İlham Bədəlov**

Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
e-mail: b_ilham1@mail.ru

**Xülasə.** Məqalədə dövlətin regional idxaləvəzləmə siyasətinin həyata keçirilməsi kontekstində Azərbaycan Respublikasının iqtisadiyyatında institusional dəyişikliklərin prioritet istiqamətlərini müəyyən edilməsi məsələləri araşdırılmışdır.

**Açar sözlər:** idxaləvəzləmə, idxal asılılığı, dövlət siyasəti, institusional dəyişikliklər.

**PRIORITIES OF INSTITUTIONAL CHANGES IN THE ECONOMY OF THE REPUBLIC OF AZERBAIJAN IN THE CONTEXT OF IMPLEMENTATION OF THE REGIONAL STATE POLICY ON IMPORT SUBSTITUTION**

**Ilham Badalov**
*Azerbaijan State University of Economics, Baku, Azerbaijan*

**Abstract**. The article examines the issues of determining the priority areas of institutional changes in the economy of the Republic of Azerbaijan in the context of the implementation of the state regional policy of import substitution.
**Keywords**: import substitution, import dependence, state policy, institutional changes.

**ПРИОРИТЕТЫ ИНСТИТУЦИОНАЛЬНЫХ ИЗМЕНЕНИЙ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В КОНТЕКСТЕ РЕАЛИЗАЦИИ РЕГИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ ПО ИМПОРТОЗАМЕЩЕНИЮ**

**Ильхам Бадалов**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*

**Резюме.** В статье исследованы вопросы определения приоритетных направлений институциональных изменений в экономике Азербайджанской Республики в контексте реализации государственной региональной политики импортозамещения.
**Ключевые слова:** импортозамещение, импортозависимость, государственная политика, институциональные изменения.

## 1. Giriş

Bu gün regional səviyyədə idxal asılılığının azaldılması məsələsinin milli iqtisadiyyat miqyasında tam şəkildə həllinə imkan verməyən bir sıra institusional maneələr mövcuddur. Belə ki, dövlətin institusional-hüquqi aspektdə müasir sosial-iqtisadi inkişafı Avropanın regional demokratiya prinsipləri ilə uzlaşmır; yerli özünüidarənin tam islah olunması üçün normativ-hüquqi baza formalaşmamışdır; regionların inkişafının sahələr üzrə sektoral proqramlarının dövlətin regional inkişaf siyasətinin strateji vəzifələri kompleksi ilə koordinasiyası və uyğunlaşdırılması effektiv baş vermir; regional təyinatlı xüsusi maliyyə institutlarının yaradılması və fəaliyyəti üzrə institusional-hüquqi əsasnamələr normaya salınmamışdır; müəssisələrin klasterlərinin və ya digər sahə-ərazi birləşmələrinin fəaliyyətinin

lazımi normativ-metodoloji təminatı yoxdur; iqtisadi-hüquqi mühit qeyri-sabit olaraq qalmaqdadır ki, bu da regional innovativ inkişaf komplekslərinin investisiya cəhətdən cəlbediciliyini azaldır; iqtisadi inkişafın regional və yerli problemlərinin həllində əhalinin və qeyri-dövlət institutlarının işgüzar aktivliyinin stimullaşdırılması sahəsində lazımi institusional-hüquqi təminat yoxdur [1].

Azərbaycan Respublikasının iqtisadiyyatının idxal asılılığının azaldılması üzrə məsələlərin regional səviyyədə tam şəkildə həll edilməsinə imkan verməyən institusional maneələr müəyyən edilmişdir. İqtisadi mühitdə institusional dəyişikliklərin vacibliyinin konseptual izahı ilə bağlı elmi mülahizələr verilmişdir. Daxili istehlakda idxalın payına görə Azərbaycan Respublikasının regionlarının differensiasiyası aparılmış və onların idxal asılılığının səviyyəsi barədə müvafiq nəticələr çıxarılmışdır. İdxaləvəzləmə üzrə dövlət siyasətinin effektiv həyata keçirilməsi üçün Azərbaycan Respublikasının regionlarında baş verməli olan institusional dəyişikliklərin prioritet istiqamətləri identifikasiya edilmişdir, o cümlədən: idxaləvəzləmə üzrə regional siyasətin ən problemli istiqamətləri üzrə (rəqabətin gücləndirilməsi, mülkiyyət hüquqlarına riayət olunması, investisiya maraqlarının qorunması) tənzimlənməsinin normativ-metodoloji bazisinin təkmilləşdirilməsi; idxaləvəzləmə siyasətinin strateji məkan-ərazi üzrə proqramlaşdırılmasının tətbiqi; idxaləvəzləmə üzrə regional siyasətin həyata keçirilməsinin tənzimləmə qaydasının institusional-təşkilati əsaslarının yaxşılaşdırılması; regiondaxili iqtisadi münasibətlərin kölgəli olmasına qarşı təsirin normativ-hüquqi əsaslarının gücləndirilməsi; idxaləvəzləmə siyasətinin həyata keçirilməsinə görə məsul regional kontakt mərkəzlərinin və sahələrinin inkişafına yardım.

Y.Qolovaxanın fikrincə, institusional dəyişikliklər yeni qaydaların (qanunların, normativ məhdudiyyətlərin, dəyərlərin, ənənələrin) təşəkkül tapmasının və cəmiyyət tərəfindən qəbul edilməsinin, onların artikulyasiyasına və riayət olunma qaydasına görə məsul iqtisadi-təşkilati strukturların yenilənməsinin, biznesin və cəmiyyətin institusionallaşdırılmış davranışının infrastrukturunun tərkib hissələrinin yaradılmasının əlaqələndirilməli olduğu təkamül prosesidir [2, s.5-23]. S.Kirdina həmçinin institusional dəyişikliklərin təkamül xarakterini qeyd edir və cəmiyyətdə iqtisadiyyat, siyasət və həyat dəyərləri ilə bağlı yaranmış stereotiplər əsasında cəmiyyətin inteqrasiyası və sabitləşdirilməsi proseslərini onlarla əlaqələndirir [3, s.101-115]. İnstitusional dəyişiklikləri iqtisadiyyatın idarə edilməsinin inzibati-komanda üsullarına əsaslanan radikal sosial-iqtisadi islahatlar prosesi kimi nəzərdən keçirən və ictimai münasibətlər sisteminin idarə olunması və tənzimlənməsi ilə bağlı institutların kəmiyyət-keyfiyyət cəhətdən və mahiyyət dəyişikliklərini nəzərdən keçirən S.Moçerninin iddiaları yuxarıdakılara ziddir [4, s.215].

Azərbaycan Respublikasının regionlarının daxili istehlakda idxalın payına görə idxal asılılığı səviyyəsinin qiymətləndirilməsi zamanı onların differensiasiyasını apararkən aşağıdakı nəticələrə gəlirik. Belə ki, 2019-ci ildə Azərbaycan Respublikası üzrə göstəricinin qiyməti 62,8 % təşkil etmiş, burada ön sıralarda Cəlilabad rayonu (127,8 %), Abşeron rayonu (108,9 %), Lənkəran rayonu (98,1 %), Masallı rayonu (88,2 %), Şəmkir rayonu (76,8 %) və

Bakı ş. (72,3 %) olmuş, lakin əksəriyyəti üçün (19 vilayət) göstəricinin ümumrespublika üzrə aşağı qiyməti səciyyəvi olmuşdur.

Qeyd edək ki, 2007-2019-ci illər ərzində idxaləvəzləmənin kritik səviyyəsinin aid olduğu ərazilərin tərkibi demək olar ki, dəyişməmişdir. Söhbət idxaləvəzləmə reytinqinə görə daim regionların onluğunda olan Şəmkir, Lənkəran, Abşeron, Cəlilabad rayonlarından və Bakı şəhərindən gedir. Həmçinin ayrı-ayrı ərazilər (Abşeron və Masallı və qismən Bakı ş.) daim belə regionların beşliyinə daxil olmuşdur. İdxal asılılığının təhlil olunan dövr ərzində 20,0%-dən yuxarı olmayan sabit aşağı səviyyəsi Daşkəsən, Saatlı, Şəki, Sabirabad rayonlarına məxsus olmuşdur [5].

Dövlət idarəçiliyinin milli regional sistemini nəzərdən keçirərkən idxaləvəzləmə siyasətinin həyata keçirilməsi zamanı rəqabət, mülkiyyət hüquqlarına riayət olunmasına zəmanətin təmin edilməsi, qoyulmuş kapitalın sahiblərinin maraqlarının qorunması qaydalarının formalaşdırılması üzrə institusional dəyişiklikləri, biznesin idarə edilməsinin təkmilləşdirilməsini izləyirik.

Olduqca mənfi haldır ki, Azərbaycan Respublikasının regionlarında idxaləvəzləmə üzrə dövlət siyasətinin həyata keçirilməsinin strateji proqramlaşdırılması sənədləri yoxdur. Regionların iqtisadi inkişafı strategiyalarında idxaləvəzləmə problemi əsasən operativ vəzifələrdən biri kimi nəzərdən keçirilir, ayrı-ayrı regionarda isə (xüsusən istehsal-sənaye regionlarında – Masallı, Şəmkir, Şəki rayonlarında) hətta belə siyahıya da daxil edilmir. Müvafiq olaraq, bu, dövlət siyasətinin həmin sahəsində tədbirləri rasional işləyib hazırlamağa və həyata keçirməyə, eləcə də nəinki yalnız regionun iqtisadiyyatının, həm də ümumilikdə milli iqtisadiyyatın inkişafı üçün institusional bazanı lazımi qaydada formalaşdırmağa imkan vermir. Görünür, regionlarda bu cür strateji idarəetmə üslubu mövcud olduğu və idxaləvəzləmə proseslərinin planlaşdırılmasının prioritetliyinə məhəl qoyulmadığı müddətdə idxal mallarından asılılıqdan qurtulmaq, öz istehsal potensialımızı effektiv istifadə etmək və ümumilikdə davamlı sosial-iqtisadi inkişaf üçün ilkin şərtləri uğurla formalaşdırmaq mümkün olmayacaq. Buna görə də ərazi üzrə idxaləvəzləmənin nəticəsi kimi idxal mallarının istehlak bazarının əvəzlənməsi üçün normativ-proqram nizamlanmasını gücləndirmək vacibdir.

Mövcud institusional bazanın regional səviyyədə çatışmazlıqlarından biri idxal mallarından asılılığa yol verilməməsi üzrə tənzimləmə siyasətinin kifayət qədər məqsədyönlü olmamasıdır. Əsasən bu cür problemin yaranması hakimiyyət səlahiyyətlərinin əlaqəsizliyi, yerli maliyyə resurslarının konsolidasiyasının hüquqi təminatının natamamlığı, icra hakimiyyəti orqanları ilə yerli özünüidarə orqanları arasında institusional münasibətlərin tənzimlənməsində real qanunvericilik islahatlarının olmaması və s. cəhətdən müzakirə edilir. Şübhəsiz, regionlar səviyyəsində tənzimləmə siyasətinin prinsiplərinin yaxşılaşdırılması üçün ilk növbədə hüquqi-institusional təminatın təkmilləşdirilməsi vasitəsilə mərkəzləşmə qaydasında tədbirlər həyata keçirilməlidir. Bununa belə, daha mühüm amil yerli hakimiyyət orqanları tərəfindən onlara nə dərəcədə keyfiyyətli əməl edilməsi olacaqdır. Burada yerli

özünüidarə orqanlarının tənzimləmə fəaliyyətinin derequlyasiya, qabaqcadan bilmə, detenizasiya, inteqrasiya olma, şəffaflıq, məsuliyyət və s. prinsiplərə əsaslanması vacibdir. Söhbət icazə sisteminin unifikasiyası, investisiya fəaliyyətində bürokratik və korrupsiya maneələrinin azaldılması, yerlərdə dövlət nəzarəti orqanları və biznes subyektləri arasında inteqrasiya əlaqələrinin gücləndirilməsi vasitəsilə idxaləvəzləmə problemlərinin həllindən gedir.

Ərazilərin və onların təsərrüfat fəaliyyəti subyektlərinin idxal asılılığını gücləndirən əsas amillərdən biri kölgəli iqtisadi münasibətlərdir. Xarici ticarət münasibətlərinin dövlət tərəfindən tənzimlənməsinin effektivliyinin aşağı olması, bankdan kənar pul dövriyyəsinin olması, vergi-büdcə sisteminin natamamlığı, infrastrukturun gömrük, bazar və digər tərkib hissələrinin təsərrüfat idarəetməsinin nizamsızlığı, icra hakimiyyəti və yerli özünüidarə orqanlarında korrupsiyanın olması onların yayılmasına gətirib çıxarır. İdxaləvəzləmə üzrə regional dövlət siyasətinin yüksək effektivlik səviyyəsinin təmin edilməsi kontekstində ticarət münasibətlərinin şəffaflaşdırılması prosesi mühüm olur ki, bundan əvvəl bir sıra institusional dəyişikliklər olmalıdır. Hesab edirik ki, regional iqtisadiyyatda vasitəçilik sektorunda təsərrüfatçılığın hüquqi formalarının payının artırılmasının stimullaşdırılması üzrə institusional tədbirlər effektiv ola bilər ki, bunun sayəsində kölgəli nağd hesablaşmaların həcminin azalmasını, biznes subyektlərinin məsuliyyətinin artmasını, biznes əməliyyatlarının leqallaşdırılmasının sürətlənməsini gözləmək olar. Həmçinin regional dövlət idarəetmə orqanlarının uçota alınmayan ticarət əməliyyatlarının aşkarlanması və qarşısının alınması üzrə fəaliyyəti aktivləşdirməsi vacibdir. Nəticədə müvafiq regional dövlət siyasəti daxili istehlak bazarının iştirakçıları arasında şəffaf ticarət münasibətlərini stimullaşdıran motivasiya tədbirləri kompleksinin həyata keçirilməsini nəzərdə tutmalıdır [7, s. 51-55; 8, s. 298-303].

Bu cür vəzifələrin yerinə yetirilməsi üçün regionlarda idxaləvəzləmə siyasətinin həyata keçirilməsi üçün güclü informasiya-analitik, elmi-texnoloji, konsultasiya-qoruma və başqa tip mərkəzlərin yaradılması və fəaliyyət göstərməsi imkanları institusional cəhətdən təmin edilməlidir. Burada, hər şeydən əvvəl, bütün regiondaxili bazar subyektlərinin öz idxal asılılığının azaldılmasında yüksək marağının olması vacibdir. Bu, yerli özünüidarə orqanlarının iqtisadi fəaliyyətin əsas və prioritet növlərinin dəstəklənməsi və inkişafına şərait yaradılması, bununla da bazarda onların rəqbət qabiliyyətinin artması; biznes subyektlərinin idxal analoqlarının əvəz edilməsi üçün innovasiya məhsullarının işlənib hazırlanmasına və realizasiyasına vəsait qoyulması; alıcıların öz istehlak dəyərlərini, ənənələrini və ayrı-ayrı tələbatlarını milli və yerli mal istehsalçılarının xeyrinə yönləndirməsi arzusunun olmasında özünü göstərəcək. Aydındır ki, iqtisadi maraqların uyğunlaşdırılmasının təmin edilməsi üçün yerli dövlət institutları əsas rol oynamalıdırlar. Onlar öz fəaliyyəti ilə ərazi bazarının hər subyektinin idxaləvəzləmə probleminin həllində iştirakına təşəbbüs edəcəklər [9, s. 119-122; 10, s. 54-57].

**Nəticə.** İnstitusional problemlər Azərbaycan Respublikasının bütün regionları üçün eynitiplidir, sadəcə olaraq, idxaləvəzləmə siyasətinin bu cür transformasiya istiqamətlərinin

həyata keçirilməsi üçün infrastrukturun keyfiyyətində ayrı-ayrı fərqlər formalaşmışdır. Belə ki, sərhədyanı ərazilər üçün ticarət, istehsal-sənaye münasibətlərinin şəffaflaşdırılması üçün institusional bazisin formalaşdırıması – resurs-xammal təminatının elementlər sisteminin strateji proqramlaşdırılmasının işlənib hazırlanması və realizasiyası daha mühüm əhəmiyyət daşıyır.

**Ədəbiyyat**

1. Кушнир М. Институционально-правовое обеспечение экономического развития регионов в посткризисный период / м. Кушнир [Электронный ресурс]. Режим доступа: http://www.niss.com/articles/465.
2. Головаха Е.И. Постсоветская деинституционализация и становление новых социальных институтов в обществе. Социология: теория, методы, 2018, № 4, с.5-23.
3. Кирдина С. Г. Теория институциональных матриц в поисках новой парадигмы. Журнал социологии и социальной антропологии, 2018, № 1, т. 4, с.101-115.
4. Экономическая энциклопедия: в трех томах. Т. 1. / Ред. С. В. Мочерный и др. М. : ВЦ «Академия», 2016, 864 с.
5. Государственная служба статистики Азербайджанской республики [Электронный ресурс]. – Режим доступа: http://www.stat.gov.az.
6. Теоретико-методические основы и прикладные механизмы государственного регулирования развития внутренней торговли: монография / под общ. ред. Куцика П. О, Васильцива Т. Г. Липецк: во ЛТЭУ, 2016, 379 с.
7. Волошин В.И., Васильцев Т.Г., Давиденко С.В. и др. Дисбалансы и механизмы развития внутреннего рынка Азербайджанской Республики. М.: в-во ООО «Лигапрес», 2015, 84 с.